Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi

F. Köçərli adına Respublika
Uşaq Kitabxanası



# *Azərbaycan ədəbiyyatında öz səsi, öz sözü olan şairə Nigar Rəfibəyli*

**Nigar Rəfibəylinin 110 illik yubileyi münasibətlə mərkəzi kitabxanalarının uşaq şöbələri, MKS-in şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait**

**Bakı - 2023**

**Tərtibçi:** **Aynurə Əliyevа**

**İxtisas redaktoru və buraxılışa məsul:** **Şəhla Qəmbərova**
**Əməkdar Mədəniyyət işçisi**

**Redaktor:** **Ruhiyyə Məmmədli**

**Azərbaycan ədəbiyyatında öz səsi, öz sözü olan şairə** Nigar Rəfibəylinin 110 illik yubileyi münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait / tərt.ed. A.Əliyeva; red. R.Məmmədli; ix. red. və burax. məsul Ş.Qəmbərova; F.Köçərli adına Respublika Uşaq Kitabxanası.- Bakı, 2023.-39s.

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2023**

## Giriş

Ürək geniş olarsa,
        xəyal dərin olarsa,
Nə arzular ölər,
Könüldə bir işıq,
        bir atəş varsa-
Balaca bir mətbəxdən də
        böyük bir dünya görünər...

İnsan hissləri ilə ali, bənzərsiz, və gözəldir. Onu poetik dilə çevirdikdə, şeir nümunəsi kimi qəlbində qol-qanad verdikdə bir az da gözəlləşir, ülviləşir, munisləşir. Ürəyin səsi sözlərə calanıb tel-tel olur. Səmimi, içdən və dürüst, təbii ifadələr qəlibsiz, bənd-rədifsiz də ürəkləri riqqətə gətirə bilir. Yaşanan halın izahı kimi bütün orijinallığı, təbiiliyi və ən əsası, inandırıcı olması və həqiqət yükü ilə dəyərlənir.

Şeir bəzən bir sözdən, bir misradan başlanır. Qəlbin xırda bir titrəyişindən doğan duyğu sonra gözü açılan bulaq kimi axıb gedir, yüzlərlə, minlərlə hiss çalarlarını özünə qoşa-qoşa insannın mənəvi psixoloji vəziyyətini göstərən qeyri-adi bir düşüncə ümmanına çevrilir. Hələ bu sənətkar təvazökarlığının, ana-qadın nəcibliyinin timsalı kimi yaşayan, ipək ovqatlı misralar yaradan qadın qəlbinin məhsuludursa, zərif duyğular dilə gəlib, nəğməyə dönə bilir.

Azərbaycan poeziyasının qadın şairlərindən ibarət çox möhtəşəm bir sırası var. Məhsəti Gəncəvidən, Natəvan xanımdan, başlayaraq Mədinə Gülgün, Hökümə Billuri, Mirvarid Dilbazi, Nigar Rəfibəyli  kimi sənətkarlarımızın şeirləri ilə zənginləşən ədəbiyyatımızın inkişafında onların yaradıcı fəaliyyəti böyükdür. Könlü gözəllik vurğunu olan,

lirik, həzin misraları ilə tez-tez xatırlanan Nigar Rəfibəyli isə, xalq şairi Qabilin təbirincə desək, poeziyamızın ana bülbülü idi...

Azərbaycanın ən böyuk vurğun şairlərindən biri Nigar Rəfibəylinin 110 illik yubileyi münasibətlə bu vəsaiti işləməyi özümüzə borc bildik. Vəsait iki hissədən ibarətdir. I hissə “Könlündə bir işıq, bir atəş varsa...” adlanır və Nigar Rəfibəylinin həyat və yaradıcılığından bəhs edir. II hissə “Lirik nəğmələr şairəsi” adlanır və şairənin yaradıcılığını oxuculara daha yaxından tanıtmaq məqsədilə kitabxanada təşkil olunan tədbirlərdən söhbət açılır.

## Könlündə bir işıq, bir atəş varsa...

*Həyat və yaradıcılığı*

Nigar Rəfibəylinin atası Xudadat bəy Rəfibəyli 1913-cü il iyunun 23-də Gəncə şəhərində anadan olmuşdur. Bakı Pedaqoji Texnikumunu bitirmişdir (1930). Moskvada Pedaqoji İnstitutda təhsilini davam etdirmişdir (1932–1936). Bakı kinostudiyasında ssenari şöbəsində, eyni zamanda fəhlə-gənclər məktəbində (1930–1932), Azərnəşrdə bədii-ədəbiyyat şöbəsində tərcüməçi və redaktor, Uşaqgəncnəşrdə bədii ədəbiyyat şöbəsində redaktor (1937–1939) vəzifələrində işləmişdir. Xidmətlərinə görə "Şərəf" nişanı, orden və medallarla təltif olunmuşdur.

"Çadra" adlı ilk şeri 1928-ci ildə "Dan ulduzu" jurnalında dərc edilmişdir. 1934-cü ildə nəşr olunmuş ilk "Şerlər" kitabı Azərbaycan qadınlarının yeni həyat quruculuğunda iştirakından bəhs edir. "Dolores İbarruri" (1936) şeri ispan xalqının faşizmə qarşı qəhrəmanlıq mübarizəsinə həsr

olunmuşdur. "Cəmilə" şeri Əlcəzair xalqının milli azadlıq mübarizəsinə həsr olunmuş qüvvətli lirik əsərlərdəndir.
Məhsəti Gəncəvinin rübailərini, Evripidin "İfigeniya", Fridrix Şillerin "Məkr və məhəbbət", Anton Çexovun "Vanya dayı", "Albalı bağı" dramalarını, E. L. Voyniçin "Ovod", O. Qonçarın "Bayraqdarlar" romanlarını, Əlişir Nəvai, Aleksandr Puşkin, Mixail Lermontov, Taras Şevçenko, Ş. Petöfi, A. Mitskeviç, A. Sereteli və başqalarının əsərlərini tərcümə etmişdir. Əsərləri xarici dillərə tərcümə olunmuşdur. 1981-ci ildə Bakı şəhərində vəfat etmişdir. Məzarı II Fəxri Xiyabandadır.

***Mükafatları***

"Şərəf nişanı" ordeni — 9 iyun 1959
"Azərbaycan SSR əməkdar mədəniyyət işçisi" fəxri adı — 21 oktyabr 1967
Azərbaycan SSR Ali Sovetinin Fəxri fərmanı — 28 iyun 1973
"Azərbaycan SSR xalq şairəsi" fəxri adı — 19 iyun 1981

**Kitabları**

Təbiət mənzərələri, mənəvi zənginlik, vətənpərvərlik, sülh, demokratiya, azadlıq ideyaları tərənnüm olunan kitabları
*Şerlər* (1934)
Dənizin səsi gəlir (1964)
İşıqlı dünyam (1969)
Günəşdən gənclik istədim (1974)
Həzin bir axşamda düşsən yadıma (1982)
Şanlı nəsillərin yadigarısan (1982)
*Müharibə movzusuna və müharibə əleyhinə həsr olunan kitabları*

Zəfər nəğməsi (1943)
Şerlər (1949)
Anaların səsi (1951)
Yol xatirələri, Avropa ətrafında səyahət gündəliyindən (1957)

***Uşaqlar üçün yazdığı kitablar***

Balaca qəhrəman (1942)
Günəşin cavabı (1966)
Məstanın balaları (1968)
Bizə bahar yaraşır (1978)

*Şeirlərinə yazılmış mahnılar*

Şövkət Ələkbərova — Güllər — musiqi: Emin Sabitoğlu
Akif İslamzadə — Ala gözlüm — musiqi: Emin Sabitoğlu
Zeynəb Xanlarova — Dağları duman alanda — musiqi: Emin Sabitoğlu
Xədicə Abbasova — Aman ayrılıq — musiqi: Emin Sabitoğlu

Lirik nəğmələr şairəsi Nigar Rəfibəylini sevdirmək, yaradıcılığını gənc nəslə və şagirdlərə tanıtmaq məqsədilə kitabxanada kitab sərgisi keçirilə bilər. Sərgiyə "Şairsən, nəğməkarsan, demək... ədəbiyyətsən", "Könlündə bir işıq, bir atəş varsa...", "Lirik nəğmələr şairəsi", "İncə ruhun şeir işığında", "İpək ovqatlı misralar", "Poeziyamızın Nigarı", "Nigar Rəfibəyli - 110", "Ruhun obrazı-Nigar Rəfibəyli", "Həzin xəyal insanı-Nigar Rəfibəyli", "Bir həzin axşamda düşsən yadıma" və s. başlıqları veriə bilər. Şairin müxtəlif illərdə nəşr edilmiş kitabları oxuculara təqdim edilir. Bunlarla yanaşı, müxtəlif ədiblərin Nigar Rəfibəyli haqqında yazdığı materiallar, görkəmli insanların şairə haqqında söylədikləri sitatlar və şeir parçaları da sərgidə yer alır.


Nigar Rəfibəyli
Bir cüt
xurma ağacı


Nigar Rəfibəyli
BİZƏ
BAHAR
YARAŞIR


NİGAR RƏFİBƏYLİ
MƏSTANIN BALALARI


Nigar
Rəfibəyli
GÜNƏŞİN
CAVABI













https://drive.google.com/file/d/1GmVODK3PQ3tAqGz2qTncE-twJBhmUvUy/view
https://drive.google.com/file/d/1yZrVjKIf3jLVjdtXs2TIDB6jiiubjyIV/view

## Görkəmli şəxsiyyətlərin Nigar Rəfibəyli haqqında söylədikləri:

Nigar ana qəlbinin ən incə guşələrini belə öz şeirinin nuru ilə işıqlandırmağı bacarır. Hələ bu azdır, ana ürəyini oxucuları üçün də vərəq-vərəq aça bilir...

**Bəkir Nəbiyev,**
*Akademik*

Müasir Azərbaycan şeirinin görkəmli nümayəndələrindən biri Nigar Rəfibəylinin poeziyasını zəriflik və məhəbbət poeziyası adlandırsaq yanılmarıq.

**Hüseyn Abbaszadə,**
*Xalq yazıçısı*

Dünyada intihar edən şairlərin çoxu öz evindəki qaranlıqdan boğulur. Amma Rəsul Rzanın evində dünyanın bütün tufanlarının söndürə bilməyəcəyi bir şam yanırdı. O işıq Nigar Rəfibəyli idi.

**Fikrət Qoca,**
*Xalq şairi*

Nigar Rəfibəyli Azərbaycan ədəbiyyatında öz səsi, öz sözü olan şairədir.

**Balaş Azəroğlu,**
*Xalq şairi*

Onun əsərlərində bir inqilabçı türk qadınının ruh yüksəkliyini, mübarizə meylini görə bilirik.

**Mehdi Hüseyn,**
*Xalq yazıcısı*

Nigar xanımın şeirləri dillər əzbəri olan mahnılara çevrildi.

**Tofiq Mütəllibov,**
*Şair*

Nigar Rəfibəyli yaradıcılıq aləminə atıldığı lap birinci gündən poeziyanın məqsəd və amalını insanlara xidmətdə görmüş, istər epik, istərsə də rübai şeirlərində insanları səadətə, işığa çağıran ideyaları təsvir və tərənnüm etmişdir.

**Əliağa Kürçaylı,**
*Şair*

Nigarın ən yaxşı və qüvvətli şeirləri ılıq bir lirika ilə canlanmış şeirlərdir.

**Əli Nazim,**
*Tənqidçi, ədəbiyyatşünas*

Daxilən Nigarın həyatı, təbiəti, şəxsiyyəti yaradıcılığından zəngindir. Nigar qadın idi, Azərbaycan qadını. Təbiət ona nadir bədii istedad əta etdiyi kimi, yüksək analıq hissi də bəxş etmişdi”.

**Gülrux Əlibəyova,**
*ədəbiyyatşünas, tənqidçi*

Çoxşaxəli yaradıcılığı ilə ədəbiyyat tariximizdə silinməz izlər salan Nigar Rəfibəylinin bu il 110 illik yubileyi qeyd olunur. Bu münasibətlə respublikamızın bir çox təhsil ocaqlarında, məktəblərdə, kitabxanalarda bir sıra tədbirlərin keçirilməsi məqsədəuyğundur. Həmçinin, bu il Firidun bəy Köçərli adına kitabxanada silsilə tədbirlərin keçirilməsi planlaşdırılıb. Görkəmli şairəmiz Nigar Rəfibəylinin anadan olmasının 110 illik yubileyi ilə əlaqədar olaraq, bir sıra tədbirlər: kitab müzakirəsi, oxucu konfransı, dəyirmi masa, oxucularla söhbət, səhnəcik, rəsm və şeir müsabiqəsi, ədəbi-bədii gecə və s. keçirilə bilər.

Nəğməkar şairin yubileyi ilə əlaqədar kitabxanalarda keçiriləcək tədbirlərdən biri də, *"Mən könül mülkünün tacidarıyam"* adlı **şeir müsabiqəsidir.** Kitabxanaçı şairin bir neçə şeir kitabını məktəblilərə təqdim edir. Məktəblilər müəyyən etdikləri şeiri əzbərləyərək təyin edilmiş tarixdə kitabxanaya gəlirlər. Qonaqlar və münsiflər öz yerini aldıqdan sonra kitabxanaçı hər kəsi salamlayaraq tədbirə keçid alır. O, ilk olaraq Nigar Rəfibəylinin həyat və yaradıcılığından, onun ömür yolundan, əsərlərindən və kitablarından söhbət açır. Nəfis şəkildə nəşr olunmuş kitablar hər kəs tərəfindən rəğbətlə qarşılanır. Kitabxanaçı səhnəyə yaxınlaşaraq qonaqları salamlayır və şair haqqında qısa məlumat verir:

***Kitabxanaçı:*** Azərbaycan ədəbiyyatında Nigar Rəfibəyli poeziyası bu mənada çox qiymətli və özünəməxsusdur.

Nigar Rəfibəyli bənzərsiz şair olmaqla yanaşı, həm də dünya ədəbiyyatının dəyərli örnəklərini dilimizə tərcüməçisidir. O, böyük söz dühası Məhsəti Gəncəvinin rübailərini çağdaş türkcəmizə çox yüksək səviyyədə çevirib. Mahnı

yaradıcılığında da Nigar Rəfibəyli imzasının xüsusi yeri vardır. Onun sözlərinə yazılmış müsiqilər də şeirləri kimi xalqın yaddaşına hopub, mənəvi zövqünü zənginləşdirib.Bu gün də bu mahnılar dillər əzbəridir, müğənnilər tərəfindən sevilərək ifa olunur.

Kitabxanaçının çıxışından sonra aşağı sinif şagirdlərinin ifasında Nigar Rəfibəylinin uşaqlar üçün qələmə aldığı şeirlər səslənir.

**Nigar Rəfibəyli. Məstanın balaları**



Sevil bağa köçəndə
Məstanı da apardı.
Bağı görəndə Məstan
Gör nə tufan qopardı...

Gah ağaca dırmaşdı,
Gah divara dırmaşdı,
Gah damın üstə çıxdı,
Gah da çəpəri aşdı…
Qovdu ağ kəpənəyi,
Yoldu otu, çiçəyi…

Kərtənkələ, qurbağa
Qaçırdı sola-sağa,
Qarışqa dalında yük
Daşıyırdı yuvaya,
Gedirdi qarayürük
Elə bil ki, davaya…

Məstan təzə yerlərdə
Özünə yurd salmışdı,

Üç balası zənbildə
Yaddan çıxıb qalmışdı…
Gəzirdi həvəs ilə
Məstan evi, eşiyi,
Gözünə ilişəndə
Hərdən siçan deşiyi,
Marıtlayıb dururdu
Deşiyin qabağında,
Görün bir nələr vardı
Sevilgilin bağında.

Havada uçur arı,
Şütüyür kərtənkələ;
Tullanırdı qurbağa
Suyun yanında hələ…
Məstanın üç balası
Şirxan, Tərxan və Orxan
Zənbildən baş qaldırıb
Miyoldayırdı yaman…

Məstan atıldı, düşdü,
Oynaqladı doyunca,
Qaçdı xiyabanları
Qaçdı lap bağ boyunca…
Qaçdı, oynadı, qaçdı
Hey sevinə-sevinə,
Bura heç bənzəmirdi
Axı, şəhər evinə,
Hər yan açıq, bağ-bağat
Burda başqaydı həyat.

Məstan hey oynayırdı
Birdən duruxub durdu…
Gördü düşməni sərçə
Oturubdur budaqda..
Suyu çoxdan qurumuş
Bir quyu vardi bağda.
Məstan tez atıldı ki,
Qalxıb sərçəni tutsun,
Ağacda cik-cik edən
Sərçəni boğub udsun…

Ancaq mayallaq aşıb,
Özü quyuya düşdü.
Qaranlıqda qorxudan
Onun qanı uyuşdu…
Quyuda hər yan qara,
Bir qaranlıq çökmüşdü
Elə bil divarlara…

Məstan lal – cim dayandı…
Qorxdu, ürəyi yandı…
Sevil gördü bu halı,
Qışqırdı bərkdən Sevil.
Quyuya Məstan deyil,
Özü düşdü elə bil…
Gəlin, gəlin, ay aman,
Quyuya düşdü Məstan…
– Az atılıb – düşəydi, –
Deyə deyindi nənə,

Ürəyində acıdı
Ancaq Məstana yenə.
Yığıldılar qonşular
Hamı quyu başına,
Bir kəndir bağladılar
Lal quyunun daşına
Kəndirin də ucuna
Bağladılar bir zənbil
Zənbilə ət və çörək
Qoyub salladı Sevil…
Salladı ki, quyuya-
Məstan yeməyi görcək
Zənbilə girsin guya…

Lakin Məstan baxmadı
Zənbildəki şeylərə,
Bir məsləhət verirdi
Quyu başında hərə…
Sevil xeyli səslədi
Çox çağırdı Məstanı,
Məstan isə elə bil
Unutmuşdu dünyanı…

Nə çorəyə, nə ətə
Gözlə baxmırdı Məstan…
Nənə yerindən qalxıb
Yaxın gəldi bu zaman,
Pişik balalarının
Haman zənbilə yığdı…
Şirxan, Tərxan və Orxan
Hamı bir yerə sığdı…

Salladılar yenidən
Quyuya bu zənbili,
Elə bil ki, Məstanın
Birdən açıldı dili.
Balalarını gördü,
Cumub zənbilə girdi…
Elə bil ki, yadından
Çıxdı bayaqkı dərdi…
Körpələri yaladı,
Miyoldadı o ki var…

Bu zaman yuxarıdan
Kəndiri tez dartdılar
Çıxartdılar Məstanı,
Yanında balaları…
Gördü Sevili Məstan,
Atıldı ona sarı.
Ana, bala pişiklər,
Hey yalaşıb doydular,
Kor quyunun ağzına
Uşaqlar daş qoydular.

**Nigar Rəfibəyli. Vətənim**



Mən sənin torpağından
Boy atmışam, Vətənim...
Dirçəlmişəm, qalxmışam,
Dənli sünbül olmuşam.
Eşqini ürəyimdə
Ya şatmışam, Vətənim.
Min nəğməli, min sözlü
Coşqun könül olmuşam.
Mən səndən öyrənmişəm

Eşqi də, nifrəti də.
İnsana, təbiətə
Sonsuz məhəbbəti də...
Bir gün sinəmdə əgər,
Çırpınmasa bu ürək,
Torpağın altda belə
Sənin böyük eşqinlə
Həmişə döyünəcək...

*Digər iştirakçı səhnəyə yaxınlaşaraq "Neyləyim" adlı şeiri qiraətli şəkildə deməyə başlayır.*

Ala gözlüm, səndən ayrı gecələr
Bir il kimi uzun olur neyləyim?
Bağçamızda qızılgüllər hər səhər
Tezdən açır vaxtsız solur neyləyim?

Nərgizlərin gözü yaşla dolanda
Bənövşələr baxıb qəmgin olanda
Qərənfilin gözü yolda qalanda
Yasəmənlər saçın yolur neyləyim?

Çiçəklərin çəkir gözü intizar
Ayrılıqdan betər dünyada nə var?
Yaz axşamı səni bil ki, bu Nigar
Həzin-həzin yada salır neyləyim?

Tez gələsən, bəlkə əlac verəsən
Sünbüllərin saçın yığıb hörəsən
Çiçəkləri gəlib özün dərəsən
Yolda qalib baxışları neyləyim?

Çiçəklərin çəkir gözü intizar
Ayrılıqdan betər dünyada nə var?
Yaz axşamı səni bil ki, bu Nigar
Həzin-həzin yada salır neyləyim?

*İkinci iştirakçı "Günəşdən gənclik istədim" şeirini qiraətli şəkildə söyləyir:*

Günəşdən gənclik istədim,
Dənizdən coşğun həvəs.
Meşədən dinclik istədim,
Küləkdən ılıq nəfəs.
Güllərdən ətir istədim,
Quşlardan iti qanad.
Yarpaqdan çətir istədim,

Ömürdən coşğun həyat.
Dağdan əzəmət istədim,
İnsanlardan məhəbbət.
Nə istədim, nə istədim –
Verdi mənə təbiət…

*Üçüncü iştirakçı səhnəyə yaxınlaşaraq "Vətənim" adlı şeirini deməyə başlayır.*

Mən sənin torpağından
Boy atmışam, Vətənim...
Dirçəlmişəm, qalxmışam,
Dənli sünbül olmuşam.
Eşqini ürəyimdə
Ya şatmışam, Vətənim.
Min nəğməli, min sözlü
Coşqun könül olmuşam.
Mən səndən öyrənmişəm

Eşqi də, nifrəti də.
İnsana, təbiətə
Sonsuz məhəbbəti də...
Bir gün sinəmdə əgər,
Çırpınmasa bu ürək,
Torpağın altda belə
Sənin böyük eşqinlə
Həmişə döyünəcək...

*Tədbirin sonunda münsiflər heyəti qalibləri müəyyənləşdirir. Sonra qaliblər və digər iştirakçılara mükafat verilir.*

Nigar Rəfibəylininin 110-illik yubileyi ilə əlaqədar kitabxanalarda keçiriləcək tədbirlərdən biri də, *“Bir həzin axşamda düşsən yadıma”* adlı **oxucularla söhbət** keçirilə bilər.

Tədbir yuxarı sinif şagirdlərinin iştirakı ilə keçirilir. Tədbirə şair və yazıçılar, tədqiqatçılar, ədəbiyyat müəllimləri və sözə, şeirə vurgun gənc nəsil nümayəndələrini dəvət etmək olar. Kitabxanaya toplaşan iştirakçılar kitabxananın oxu zalına dəvət edilir. Kitabxanaçı ilk olaraq gələn qonaqları salamlayır və istedadlı şairə Nigar Rəfibəyli haqqında məlumata keçid alır.

***Kitabxanaçı:***

*Mən könül mülkünün tacidarıyam,*
*Xəyal dünyasının şah nigarıyam.*
*Vətən torpağında iftixar olan*
*Şanlı nəsillərin yadigarıyam...*

İllər, qərinələr ötəcək, Nigar Rəfibəylinin əsərləri hər zaman özünün ideya-məzmunu ilə yenə də müasir səslənəcək... Nigar xanımın bir şairə kimi sənətkarlıq xüsusiyyətlərinin təzahürü də ən çox onun lirikasında müşahidə olunur. Nigar Rəfibəyli poeziyasında qadın, ana mövzusunun xüsusi yer tutmasından çox söhbət açılıb, bu barədə çox fikirlər söylənilib. Kitablarına “Anaların səsi”, “Ana səsi” kimi adlar verməsindən də görünür ki, şair üçün bu mövzu həmişə aktual olmuşdur. Çoxşaxəli yaradıcılıq yolu keçən Nigar xanım Rəfibəyli özündən sonra elə bir ədəbi irs qoyub getmisdir ki, o, vaxtaşırı tədqiq ediləcək, öyrəniləcək və təkcə Azərbaycana yox, həm də dünya mədəniyyəti xəzinəsinə verdiyi mənəvi dəyərlərə görə unudulmayan sənətkarların biri kimi öz yerində, öz ədəbi mövqeyində görünəcəkdi.

Dünyanın görkəmli sənətkarlarının, onların da görkəmli romanlarının, pyeslərinin, povestlərinin, poemalarının, hekayələrinin və şeirlərinin Azərbaycan dilinə tərcüməsi kimi də Nigar xanım ayrıca bir tərcümə ədəbiyyatı kitabxanasıdır.

Nigar xanım Antik dövr dramaturgiyasını, Avropa İntibahını və Qədim Şərq mədəni irsini dərindən mütaliə edən nadir istedada malik kübar qadın ziyalılarımızdandır.

Nigar xanım öz kökünə, soyadına, əsl-nəslinə layiq yaşadı, ləyaqətlə də dünyasını dəyişdi.

*Kitabxanaçının çıxışından sonra kitabxanaya dəvət olunmuş məktəbin dil-ədəbiyyat müəllimi istedadlı ədib haqqında çıxışına başlayır.*

***Müəllim:*** Nigar Rəfibəyli ictimai həyatda və yaradıcılıqda mübarizələrlə dolu bir ömür yaşayıb. Sözündə və əməlində qorxmaz, cəsur olan şair özünün poetik ecazı ilə Azərbaycan ədəbiyyatına gözəl, ibrətamiz əsərlər bəxş edib. Yaşadığı dövrün gerçəklikləri müxtəlif mövzularda yazdığı poetik əsərlərinin mövzusu olub. Belə ki, təbiət mənzərələri, insanın mənəvi aləmi, vətənpərvərlik, sülh, əmin-amanlıq, azadlıq ideyaları Nigar xanımın əsərlərinin leytmotivini təşkil edib. Onların arasında "İşıqlı dünyam" (1969), "Günəşdən gənclik istədim" (1974), "Həzin bir axşamda düşərsən yadıma", "Şanlı nəsillərin yadigarısan" (1982), "Zəfər nəğməsi" (1943), "Yol xatirələri", "Avropa ətrafında səyahət gündəliyindən" kitabları (1957) nəşr olunduğu vaxtlardan böyük oxucu marağı və sevgisi ilə qarşılanıb.

Nigar Rəfibəyli öz yaradıcılığında uşaqları da unutmayıb, onlar üçün də poetik ilhamla, böyük sevgi ilə əsərlər yazıb. Şairin müxtəlif illərdə çap olunmuş "Balaca qəhrəman"

(1942), "Günəşin cavabı" (1966), "Məstanın balaları" (1968), "Bizə bahar yaraşır" (1978) kitabları balaca oxucularının sevdiyi kitablardan olub.

Onun bir çox şeirlərinə musiqi bəstələnib, tanınmış müğənnilər tərəfindən ifa olunub. Həyat yoldaşı Azərbaycanın Xalq şairi R.Rzaya həsr etdiyi və görkəmli müğənni Akif İslamzadənin ifasında filmotekamızın qızıl fonduna daxil edilmiş "Alagözlüm" mahnısı bu gün də hamının sevərək dinlədiyi ən gözəl əsərlərdən biridir.

Nigar Rəfibəylinin ədəbi yaradıcılığında tərcümə ədəbiyyatı da xüsusi əhəmiyyət kəsb edib. Belə ki, şair həyatı boyu ədəbi yaradıcılığını poeziya ilə yanaşı, tərcümə sahəsində də aparıb, hər ikisində böyük sənətkarlıq nümunələri yaradıb. Onun tərcümə əsərlərinin sadəcə adlarına diqqət edəndə yaradıcılığının bu qolunda da necə bir mükəmməllik yaratdığının şahidi oluruq.

*Tədbirə dəvət olunmuş iştirakçılardan Nigar Rəfibəyli yaradıcılığını araşdıran tədqiqatçılar da öz çıxışlarına müəyyən ardıcıllıqla davam edirlər.*

***Tədqiqatçı:*** Bizim bu keşməkeşli: tikanı gülündən, qəmi sevincindən, ağısı laylasından, qarı çiçəyindən bol olan dünyamızda bir şairə yaşayırdı. Əsilli-nəsilli bu şairə 68 illik ömründə çox ayrılıqlar gördü. Gəncədə cərrah olaraq tanınan atası Xudayar bəy Rəfibəylini-(Musavat hakimiyyəti dövründə şəhər valisi idi)-ermənilər Nargin adasında öldürdülər. Yeddi yaşında atasını itirmiş qızcığaz taleyin ümidində qaldı. Amma həyata, insanlara qarşı inamı sönmədi. 1927-ci ildə on dörd yaşındaykən Bakıya gəldi. Buranın ədəbi-mədəni mühitinə qoşuldu, kinostudiyada tərçüməçi işlədi, ilk şeirləri ilə mətbuatda çıxış etdi. Tale

onun üzünə gülürdü, amma 1930-cu ildə, respublika qəzetlərində o zamanın bolşevik liderlərindən olan Əliheydər Qarayevin bir məqaləsi çap olundu. Həmin böhtançı başdan-ayağa yalan və iftira ilə dolu yazıda Nigar Rəfibəylini-haqqında söz açdığımız şairə kəskin ittihamlara məruz qalırdı.
Əslində məqalədə tənqid olunan şeir Nigar Rəfibəylinin deyildi. Şairəyə qarşı hücum kompaniyası başlandı.
*Tədbirin sonunda məktəblilər Nigar Rəfibəylinin şeirlərindən müəyyən parçalar deməyə başlayırlar.*

*Sən ey gül fəslinin dildarı, lalə,*
*Yaşıl çəmənlərin sərdarı, lalə!*
*Al-əlvan geyimli dağlar gözəli,*
*Sən kimdən öyrəndin vüqarı, lalə?!*

*Səni kim yaratdı böylə alyanaq?*
*Kiçik yarpağında incəliyə bax!*
*Sənin rəngindədir sevdiyim bayraq,*
*Sən ilk salamlarsan baharı, lalə!*

*Çöldə bir çiçəyin bir ətri olar,*
*Hər gülün öz yeri, öz xətri olar,*
*Şeirimin ən aziz bir sətri olar,*
*İlk bahar fəslinin şüarı, lalə!..*

Azərbaycan milli ədəbiyyatını zərif lirikanın dəyərli nümunələri ilə zənginləşdirən Nigar Rəfibəylinin yaradıcılıq qayəsinin əsasını vətənə bağlılıq, insanın mənəvi ucalığı təşkil edir. Nigar Rəfibəyli Azərbaycan ədəbiyyatında öz səsi, sözü olan şairədir. Onun özünəməxsus deyim və ifadə tərzi vardır. Onun poeziyası insanların qəlbinə yol tapan

kövrək, lakin davamlı, oxucusunu uzun müddət təsir altında saxlamağı bacaran bir poeziyadır. Nigar xanımın həyatının yarım əsrini həsr etdiyi, sevə-sevə yazıb-yaratdığı və sevilə-sevilə oxunan şeirlər külliyyatı vətən torpağının gözəlliyinə - gülü, çiçəyi, dənizi, bağı, meşəsi, fəsillərin özünəməxsus çalarları, dünyamızda baş verən fərəhli və nisgilli hadisələr, ən başlıcası, insanlar, onların taleyi, mənəvi aləminə həsr olunub. Bütün bunlar kövrək qəlbli şairənin hissini, şüurunu ehtizaza gətirib, gördükləri şeirə çevrilib. Daim nikbin olan Nigar Rəfibəylinin ən kədərli şeirində belə ümidli günəşin şəfəqləri duyulur. Misraların ahəngində dan yerinin ağardığını görürsən. Çünki onun şeirləri saf bir nəfəsdən, könüldən doğan və ürəyə ünvanlanan bahar nəğmələri kimi yaşıldır. Bu şeirlərin ahəngində qəribə bir zəriflik duyulur. Nigar xanımın lirikası geniş, vüsətli bir lirikadır. Onun palitrasındakı rənglər yalnız məhəbbətin tərənnümü, hicran yanğısının təsviri üçün deyil. Bu rənglər həyatın daha əlvan hadisələrinin inikası üçün, ictimai həyatda, insanlar arasındakı münasibətlərdə yol verilən haqsızlıqların ifadəsi, köməksizlərin müdafiəsi, ahəngdarlığın qorunması üçündür.

*Rəngarəng yaradıcılıq yoluna, sənət ucalığına sahib olan, Azərbaycan ədəbiyyatının inkişafında mühüm xidmətləri olan xalq şairi Nigar Rəfibəylinin sənət yolu daim diqqətdə saxlamaq, onun yaradıcılıq yolunu oxuculara tanıtmaq məqsədi və ən əsası 110 illik yubileyinin layiqincə keçirilməsini təmin etmək məqsədi ilə, kitabxanada keçiriləcək bir sıra tədbirlədrən biri də "Nigar Rəfibəyli və poeziya" adlanan* ***dəyirmi masadır.***

Azərbaycanla bağlı müxtəlif mövzularda yazıb-yaradan Nigar xanım dünya xalqlarının da həyatından, faciəli

məqamlarından bəhs edən şeirlər də yazıb. Belə ki, onun "Dolores İbarruri" şeiri ispan xalqının faşizmə qarşı qəhrəmanlıq mübarizəsinə həsr olunmuşdur. "Cəmilə" şeri isə Əlcəzair xalqının milli-azadlıq mübarizəsindən bəhs edən qüvvətli lirik əsərlərindəndir.

Yaradıcıldıqla məşğul olan Nigar Rəfibəyli 1937-1939-cu illərdə "Uşaqgəncnəşr" in bədii ədəbiyyat şöbəsində redaktor vəzifəsində çalışıb. 1940-cı ildən ömrünün sonunadək bütün qüvvəsini yaradıcılıq işinə həsr edərək, qardaş xalqlar ədəbiyyatından (Nəvai, Şiller, Puşkin, Lermontov, Çexov, Şevçenko və başqaları) bədii tərcümələr etməklə milli mədəniyyət xəzinəmizi zənginləşdirmişdir. Yaradıcılıq dövründə Nigar Rəfibəyli xidmətlərinə görə "Şərəf nişanı" ordeni və medallarla təltif olunmuşdur.

Nigar Rəfibəylinin həyat və yaradıcılığı, onun həzin hisslər və incə duyğular tərənnüm edən poeziyası nəinki milli ədəbiyyat tariximizdə özünəməxsus yer tutmuş, eyni zamanda, böyük şair, ictimai xadim Rəsul Rzanın həyat və yaradıcılığına belə əsaslı təsir etmişdir. O, Azərbaycanın xalq şairi Rəsul Rza ilə birlikdə Azərbaycan ədəbiyyatının yüksəlməsində xüsusi rol oynamışdır. Bu ailənin övladı Azərbaycan xalq yazıçısı, Yazıçılar Birliyinin sədri Anar da öz əcdadlarının, anasının, atasının sənət yolunu davam etdirir və Azərbaycan ədəbiyyatının, mədəniyyətinin inkişafına öz xidmətlərini göstərir. Bir ailənin üç üzvü Azərbaycanın sevilən- seçilən nümayəndəsinə çevrilib. Bir ailədə üç xalq yazıçısı - Rəsul Rza, Nigar xanım Rəfibəyli və Anar. Bu, əlbəttə, bir şəcərənin tarixi üçün böyük bir səltənətdir.

Qeyd edim ki, Nigar xanım tanınmış, Azərbaycan həyatında rol oynamış bir ailənin yetirməsi idi. Gəncənin böyük

Rəfibəylilər ailəsinin, sülaləsinin çox parlaq nümayəndəsi idi Nigar Rəfibəyli. Ulu Öndər Heydər Əliyev Gəncəyə səfəri zamanı Sərdar bağında Nigar xanım Rəfibəylinin abidəsinin açılış mərasimində iştirak edərkən, çıxışında Gəncənin tarixi haqqında danışaraq bu sahədə Rəfibəylilərin xüsusi yerinin olduğunu vurğulamışdır. Nigar xanımın da bu şəcərənin davamçısı olaraq Azərbaycan xalqına sədaqətlə xidmət etdiyini və Azərbaycan ədəbiyyatının inkişafında böyük xidmətlər göstərdiyini bildirmişdir: "Ancaq onun ailəsinin həyatı da faciəli olmuşdur. Gəncəlilərə həm qəhrəmanlıq qismət olmuşdur, həm də təəssüflər olsun ki, faciələr, repressiyalar da qismət olmuşdur. İyirminci illərin repressiyalarında, otuzuncu illərin repressiyalarında çox dəyərli gəncəlilər - ziyalılar məhv edilmişdilər. Onlardan biri də Nigar xanımın atası Xudadat bəy Rəfibəyli Azərbaycanın ilk müstəqil hökumətində, Xalq Cümhuriyyətində nazir vəzifəsini tutmuş bir insan, sonra repressiya qurbanı olmuşdur. Ancaq tarix hər şeyi öz yerinə qoyur. Repressiya qurbanı olmuş Xudadat bəy Rəfibəylinin qızı Nigar xanım Rəfibəyli böyük yol keçmiş, Azərbaycan mədəniyyətinin inkişaf etməsi uğrunda çalışmışdır".
Həqiqətən də, orijinal yaradıcılıq imkanlarına malik olan Nigar Rəfibəylinin şeirləri Azərbaycan ədəbiyyatında özünəməxsusluğu ilə seçilir. Onun poeziyasında insana məhəbbət anlayışı genişdir. Əsil humanist şairlər kimi, Nigar xanım da bütün əməksevər, sülhsevər insanları sevir, onları xoşbəxt görmək istəyirdi. Nigar Rəfibəyli son dərəcə həssas, qayğıkeş, mülayim və kövrək qəlbli bir insan idi. Həyatı, insanları bu qədər dərindən sevən, onları ilhamla tərənnüm edən, səmanı aydın, günəşi parlaq, gülləri ətirli, insanları

kamil görmək istəyən şairənin bu gün də qulaqlarımızda əks edən səsi həqiqi sənətkarın, kamil insanın könül arzularıdır.
Nigar Rəfibəyli Azərbaycanın şair qadınları arasında öz zərif duyğusu və intellektual səviyyəsi ilə seçilir. Onun şeirlərində Azərbaycan qadınlarının sevgi və zəhmət dünyası, ağrı və acıları bütün əlvanlığı ilə qələmə alınmışdır. Şairin bənzərsiz, yüksək metodik ahəngə və dəyərli sözə malik olan nəğmələri çoxdur. Nədən yazmasından asılı olmayaraq, Nigar Rəfibəylinin poeziyasında daim müraciət olunan bir mövzu həmişə diqqət çəkib. Bu, ana məhəbbəti, qadın səadəti, övlad sevgisidir. Nigar Rəfibəyli yaradıcılığında ana mövzusunun xüsusi yeri var. Övlad, ana məhəbbəti, onun şeirində Tanrı zirvəsinə qalxa biləcək bir dünyadır:

Döyür pəncərəmi bir acı ruzigar,
Bayırda bu axşam yenə boran var.
Bürüyüb qəlbimi coşqun arzular,
Çəkilib gözümün yuxusu, ana.

Nigar Rəfibəylinin yaradıcılığı incə və saf duyğulardan ibarətdir. Bəzən şeirlərdə həyatın və ovqatın poetik mənzərəsi adamı heyrətə gətirir. Nigar xanımın şeirləri sadəliyi, səmimiliyi, təbiiliyi ilə diqqəti cəlb edir. Bunlar asanlıqla oxucuların qəlbinə yol tapır, onları düşündürmək, həyəcanlandırmaq iqtidarındadır.
Zərif duyğularının poetik şəkildə təsirli ifadəsinə, həyatın adilikləri içərisində heyrətedici məqamları görə bilməsinə və bunun da nəticəsində qələmə aldığı şeirlərində insanın ruhunu dilə gətirən, ona romantik duyğular aşılayan, düşündürən Nigar Rəfibəyli Azərbaycan poeziyasında öz dəst-xəttinə malik unudulmaz söz sahiblərindən biridir.

Çoxşaxəli yaradıcılığı ilə ədəbiyyat tariximizdə silinməz izlər salan Nigar Rəfibəyli oxunan və həm də çox sevilən şairlərdən biridir. Könlü gözəllik vurğunu olan, dillər əzbəri nəğmələri ilə daim xatırlanan Nigar Rəfibəylinin yaradıcılığı başdan-ayağa duyğulardan ibarətdir. Nigar xanımın yaradıcılığı bir neçə cəhətdən maraqlıdır. Hər şeydən əvvəl isə o, gözəl nəğmələrin, heç zaman unudulmayan, həmişə təzə-tər səslənən mahnıların müəllifidir. Azərbaycanın görkəmli bəstəkarları şairin şeirlərinə müraciət ediblər: Niyazi, Fikrət Əmirov, Səid Rüstəmov, Cahangir Cahangirov, Tofiq Quliyev, Emin Sabitoğlu, Polad Bülbüloğlu və başqaları.

Nigar Rəfibəylinin təbiət mənzərələri, mənəvi zənginlik, vətənpərvərlik, sülh, demokratiya, azadlıq ideyaları tərənnüm olunan "Dənizin səsi gəlir", "İşıqlı dünyam", "Günəşdən gənclik istədim", "Həzin bir axşamda düşsən yadıma", "Şanlı nəsillərin yadigarısan" müharibə mövzusuna və müharibə əleyhinə həsr olunan "Zəfər nəğməsi", "Anaların səsi", uşaqlar üçün yazdığı "Balaca qəhrəman", "Günəşin cavabı", "Məstanın balaları", "Bizə bahar yaraşır" kitabları da ədəbiyyatımızı zənginləşdirmişdir.

Nigar Rəfibəyli Məhsəti Gəncəvinin rübailərini, Evripidin "İfigeniya", F.Şillerin "Məkr və məhəbbət", A.P.Çexovun "Vanya dayı", "Albalı bağı" dramalarını, E.L.Voyniçin "Ovod", O.Qonçarın "Bayraqdarlar" romanlarını, Ə.Nəvai, A.S.Puşkin, M.Y.Lermontov, T.Q.Şevçenko, Ş.Petefi, A.Mitskeviç, A.Sereteli və başqalarının əsərlərini tərcümə etmişdir. Eyni zamanda, əsərləri xarici dillərə tərcümə olunub.

Nigar Rəfibəyli Azərbaycan ədəbiyyatına şairə, tərcüməçi, Azərbaycanın əməkdar mədəniyyət işçisi, Azərbaycanın xalq şairi kimi iz salıb.

Gözəl insan, unudulmaz şairəmiz Nigar xanım Rəfibəyli 1981-ci il iyulun 10-da Bakıda vəfat edib və Fəxri Xiyabanda dəfn olunub. Hazırda Bakı küçələrindən biri onun adını daşıyır.

Azərbaycan ədəbiyyatının bənzərsiz qadın şairəsi 110-illik yubileyi ilə əlaqədar olaraq keçirilən maraqlı tədbirlərdən biri də ədəbi bədii gecədir. *"Bahar eşqilə elə nəğmələr qoşacağam ki..."* adlı **ədəbi bədii gecədə** Azərbaycanın görkəmli ədibləri; şair və yazıçılar, alimlər, maarifçilər, jurnalistlər, sənət-söz adamları, oxucular, məktəblilər iştirak edir. Qonaqlar ədibin şəkilləri, müxtəlif adda əsər başlıqları yazılmış çərçivərələrlə bəzədilmiş zalda öz yerlərini alırlar. Gecənin aparıcıları səhnəyə yaxınlaşır.

**I aparıcı:** Salam, dəyərli qonaqlar, bu il istedadlı şairə, bənzərsiz insan Nigar Rəfibəylinin anadan olmasının 110-ili tamam olur. Bu münasibətlə buraya yığışmışıq. Sizləri bu mənalı və gözəl tədbirdə xoş gördük. Azərbaycan nəzm ədəbiyyatı qarşısında böyük xidmətlər göstərən Nigar Rəfibəyli klassik Azərbaycan ədəbiyyatının inkişafı sahəsində durmadan işləyib, bu yöndə özünəməxsus iz buraxıb. Yazıçının bütün əsərlərində Azərbaycan dilinin saflığı özünü göstərir. O, vətəndaş olaraq dil uğrunda apardığı mübarizədə həmişə qalib olub. Öz şirin üslubu ilə şeirə gözəllik və xüsusi təravət qatıb. Sevimli şairəmiz Nigar xanım ziyalı, istedadlı Azərbaycan xanımının parlaq nümunəsidir. Onun kövrək şair qəlbinin nisgili, fərəhi, sonsuz ümidləri inci kimi düzülən misralarında gizlənir.

**II aparıcı:** Azərbaycan milli ədəbiyyatını zərif lirikanın dəyərli nümunələri ilə zənginləşdirən Nigar Rəfibəylinin yaradıcılıq qayəsinin əsasını vətənə bağlılıq, insanın mənəvi ucalığı təşkil edir. Nigar Rəfibəyli Azərbaycan ədəbiyyatında öz səsi, sözü olan şairədir. Onun özünəməxsus deyim və ifadə tərzi vardır. Onun poeziyası insanların qəlbinə yol tapan kövrək, lakin davamlı, oxucusunu uzun müddət təsir altında saxlamağı bacaran bir poeziyadır. Nigar xanımın həyatının yarım əsrini həsr etdiyi, sevə-sevə yazıb-yaratdığı və sevilə-sevilə oxunan şeirlər külliyyatı vətən torpağının gözəlliyinə - gülü, çiçəyi, dənizi, bağı, meşəsi, fəsillərin özünəməxsus çalarları, dünyamızda baş verən fərəhli və nisgilli hadisələr, ən başlıcası, insanlar, onların taleyi, mənəvi aləminə həsr olunub. Bütün bunlar kövrək qəlbli şairənin hissini, şüurunu ehtizaza gətirib, gördükləri şeirə çevrilib. Daim nikbin olan Nigar Rəfibəylinin ən kədərli şeirində belə ümidli günəşin şəfəqləri duyulur. Misraların ahəngində dan yerinin ağardığını görürsən. Çünki onun şeirləri saf bir nəfəsdən, könüldən doğan və ürəyə ünvanlanan bahar nəğmələri kimi yaşıldır. Bu şeirlərin ahəngində qəribə bir zəriflik duyulur. Nigar xanımın lirikası geniş, vüsətli bir lirikadır. Onun palitrasındakı rənglər yalnız məhəbbətin tərənnümü, hicran yanğısının təsviri üçün deyil. Bu rənglər həyatın daha əlvan hadisələrinin inikası üçün, ictimai həyatda, insanlar arasındakı münasibətlərdə yol verilən haqsızlıqların ifadəsi, köməksizlərin müdafiəsi, ahəngdarlığın qorunması üçündür.

**I aparıcı:** Azərbaycanla bağlı müxtəlif mövzularda yazıb-yaradan Nigar xanım dünya xalqlarının da həyatından, faciəli məqamlarından bəhs edən şeirlər də yazıb. Belə ki, onun "Dolores İbarruri" şeiri ispan xalqının faşizmə qarşı

qəhrəmanlıq mübarizəsinə həsr olunmuşdur. “Cəmilə” şeri isə Əlcəzair xalqının milli-azadlıq mübarizəsindən bəhs edən qüvvətli lirik əsərlərindəndir.

Yaradıcılıqla məşğul olan Nigar Rəfibəyli 1937-1939-cu illərdə “Uşaqgəncnəşr” in bədii ədəbiyyat şöbəsində redaktor vəzifəsində çalışıb. 1940-cı ildən ömrünün sonunadək bütün qüvvəsini yaradıcılıq işinə həsr edərək, qardaş xalqlar ədəbiyyatından (Nəvai, Şiller, Puşkin, Lermontov, Çexov, Şevçenko və başqaları) bədii tərcümələr etməklə milli mədəniyyət xəzinəmizi zənginləşdirmişdir. Yaradıcılıq dövründə Nigar Rəfibəyli xidmətlərinə görə “Şərəf nişanı” ordeni və medallarla təltif olunmuşdur.

**II aparıcı:** Nigar Rəfibəylinin həyat və yaradıcılığı, onun həzin hisslər və incə duyğular tərənnüm edən poeziyası nəinki milli ədəbiyyat tariximizdə özünəməxsus yer tutmuş, eyni zamanda, böyük şair, ictimai xadim Rəsul Rzanın həyat və yaradıcılığına belə əsaslı təsir etmişdir. O, Azərbaycanın xalq şairi Rəsul Rza ilə birlikdə Azərbaycan ədəbiyyatının yüksəlməsində xüsusi rol oynamışdır. Bu ailənin övladı Azərbaycan xalq yazıçısı, Yazıçılar Birliyinin sədri Anar da öz əcdadlarının, anasının, atasının sənət yolunu davam etdirir və Azərbaycan ədəbiyyatının, mədəniyyətinin inkişafına öz xidmətlərini göstərir. Bir ailənin üç üzvü Azərbaycanın sevilən - seçilən nümayəndəsinə çevrilib. Bir ailədə üç xalq yazıçısı - Rəsul Rza, Nigar xanım Rəfibəyli və Anar. Bu, əlbəttə, bir şəcərənin tarixi üçün böyük bir səltənətdir.

***I aparıcı:*** Dünyada yollar çoxdur, yolların ən çətini isə oxucu qəlbinə gedən yoldur. Bu müqəddəs yola gərək istedadla çıxasan. Nigar Rəfibəyli də xoşbəxt sənətkarlarımızdandır. Onun lirikası başdan-başa həzin bir musiqidir.

Bəstəkarlarımız onun sözlərinə çoxlu mahnılar bəstələyiblər. Nigar xanım Rəfibəyli ədəbiyyata özünəməxsus mövzu, lirizm, və çalarla daxil olmuşdur. Saf məhəbbət, insan taleyi, nisgilli hadisələr, qadın taleyi, övlad sevgisi, vətənə, torpağa sevgi, ömür-gün yoldaşına vəfa, bağlılıq, qadın ürəyinin kövrəkliyi onun poeziyasının əsas qayəsinə çevrilmişdir. Nigar Rəfibəylinin yaradıcılığında təbiilik ən müqəddəs bir bir duyğu kimi vəsf olunur. Onun poeziyasında yaxşılıq, xeyirxahlıq, mərdlik, qəhrəmanlıq, gənclik, zəriflik anlayışlarrı da məhz təbiilik prizmasından baxılıb qiymətləndirilir.



Ölümdən qorxmuram,
Cəfadan, zülmdən qorxuram.
Bircə məhəbbət yarasıdır
Ürəyimi qanadan...

**F.Köçərli adına Respublika Uşaq Kitabxanasının Məlumat və biblioqrafiya şöbəsinin mövzu ilə bağlı kitabxananın fondu əsasında hazırladığı ədəbiyyat siyahısı**

**Kitablarda**

**Xəyal S**. Mədəniyyəti, incəsənəti yaşadanlar. - Bakı : MBM, 2010. - 99 s.

Rəsul Rza, Nigar Rəfibəyli : foto-kitab. - Bakı : Azərbaycan, 2001. - 216 s.

Şanlı nəsillərin yadigarıyam : Nigar Rəfibəyli haqqında xatirələr, məqalələr, şeirlər, şairənin öz yazılarından örnəklər. - Bakı : E.L. NPŞ MMC, 2013. - 656 s.

**Dövrü mətbuatda**

**Abbas Z**. Bir həzin axşamda düşsəm yadına... : Nigar Rəfibəyli - 100 // Ədəbiyyat qəzeti. - 2013. - 31 may. - № 20. - S. 5.

**Abbaslı T**. Anımnamə... : başdan-başa lirik şair, etik-estetik xanım Nigar Rəfibəyliyə... // Mədəniyyət. - 2013. - 3 iyul. - № 47. - S. 13.

**Abbaslı T**. Anımnamə... : başdan-başa lirik şair, etik-estetik xanım Nigar Rəfibəyliyə // Mədəniyyət. - 2015. - 1 iyul. - № 49. - S. 13.

**Abbaslı T**. Poetik bir anımnamə : Başdan-başa lirik şair, hər cəhətdənxanımanə Nigar xanım Rəfibəyliyə... // Mədəniyyət. - 2017. - 30 iyun. - № 50. - S. 15.

**Abbaslı T**. Zər-zəriflik... :Azərbaycanın Xalq şairəsi Nigar Rəfibəyli haqqında // Mədəniyyət. - 2016. - 29 iyun. - № 50. - S. 13.

**Ağabalayeva S**. Sözlə susmaq : Nigar Rəfibəylli - 100 // Azərbaycan. - 2013. - № 7. - S. 7-17.

**Anar.** Durna teli (may-iyun 2013) : Nigar Rəfibəyli - 100 // Ədəbiyyat qəzeti. - 2013. - 7 iyun. - № 21. - S. 4-5.

**Balkan A**. Azərbaycanın məşhur qadın şairi Nigar Rəfibəylinin şeirlərində son bahar : Nigar Rəfibəyli - 100 // Ədəbiyyat qəzeti. - 2013. - 28 iyun. - № 24. - S. 3.

**Bayramova Z**. Sevgidən yoğrulan poeziya : Nigar Rəfibəyli - 100 // Səs. - 2023. - 12 yanvar. - № 5. - S. 13.

**Bərdəli B**. Bir dərsin təəssüratları : Ədəbiyyat müəllimimiz Rəsul Rzanın həyat və yaradıcılığından elə maraqla danışardı ki... // Azərbaycan Müəllimi. - 2019. - 3 may. - № 16. - S. 14.

**Əliyev Q**. Qala : Xalq şairləri Rəsul Rza və Nigar Rəfibəylinin xatirəsinə // 525-ci qəzet. - 2023. - 23 fevral. - № 34. - S. 15.

**Əliyeva G**. Nigar Rəfibəyli Poeziya günü // Ədəbiyyat qəzeti. - 2016. - 25 iyun. - № 24. - S. 15.

**Əsgərli Ə**. Rəfibəylilər nəsli və Nigar Rəfibəyli // Kaspi. - 2013. - 11 sentyabr. - № 164. - S. 15. ; 13 sentyabr. - № 166. - S.15.

**Gülayə.** O müqəddəs xatirələr : Azərbaycanın xalq şairi Nigar Rəfibəyli haqqında // Kaspi. - 2015. - 11 aprel. - № 63. - S. 24.

**Kamal R**. İki şair yuxu görürdü : Anar - 80 // Ədəbiyyat qəzeti. - 2018. - 10 mart. - № 9. - S. 30.

**Kamal R**. Ruhun obrazı: Nigar xanım Rəfibəyli // Ədəbiyyat qəzeti. - 2015. - 19 dekabr. - № 63. - S. 2.

**Mansurova Z**. Poeziyanın rəngi - rənglərin poeziyası və ya Nigar Rəfibəylinin şeirləri Məryəm Ələkbərovanın fırçasında // Xalq qəzeti. - 2014. - № 1.

**Məhərrəmova T**. Zərif duyğular şairi : Mətanəti sarsılmayan ruh. şəfqəti azalmayan qəlb, hərarəti soyumayan əllər // Kaspi. - 2017. - 11 iyul. - № 120. - S. 7.

**Mehrəliyeva S**. Poeziyamızın Nigarı : Nigar Rəfibəyli haqqında // Mədəni-maarif. - 2009. - N 7. - S. 56.

**Məmmədli N**. Bir yuxu gördüm : şair Nigar Rəfibəyli haqqında // Ədəbiyyat qəzeti. - 2018. - 30 iyun. - № 25. - S. 6.

**Mirzəbəyli İ**. Yarımçıq ömür olmur, yarımçıq işlər qalır // Xalq qəzeti. - 2011. - 18 may. - № 106. - S. 11.

**Natiqqızı G**. Sərhədləri aşan harmoniya : Azərbaycanın Xalq şairəsi Nigar Rəfibəyli haqqında // İşıq. - 2018. - № 2(94). - S. 30-33.

**Nizamiqızı H**. İncə ruhun şeir işığında : Nigar Rəfibəylinin 100 illik yubiley gecəsi // Mədəniyyət. - 2013. - 29 noyabr. - № 86. - S. 8.

**Nurəliyeva P**. Anar yaradıcılığında tənhalıq : Rəsul Rza və Nigar Rəfibəyli lirikası ilə müqayisədə // Azərbaycan : jurnal. - 2017. - № 5. - S. 175-181.

**Paşayev Q**. Deyilən söz yadigardır... // Ədəbiyyat qəzeti. - 2009. - 24 iyul. - S. 4.

**Paşayev Q**. Nigar Rəfibəylinin keşməkeşli həyatı və yaradıcılıq yolu // Ədəbiyyat qəzeti. - 2013. - 1 noyabr. - № 40. - S. 5-6.

**Paşayev Q**. Şanlı nəsillərin yadigarı : Nigar Rəfibəyli haqqında // Azərbaycan : qəzet. - 2018. - 24 iyun. - № 138. - S. 6.

**Paşayev Q**. Xalqın və nəslin iftixarı // Respublika. - 2013. - 14 sentyabr. - № 201. - S. 12.

**Paşayev Q**. Xalqın və nəslin iftixarı : Nigar Rəfibəylı - 100 // Azərbaycan. - 2013. - 29 iyun. - № 139. - S. 5.

**Quliyeva S**. Nigar Rəfibəyli - şair taleyi // Ədəbiyyat qəzeti. - 2022. - 25 iyun. - № 23. - S. 2-3.

**Rəhimli T**. Şanlı nəsillərin yadigarı : Azərbaycanın tanınmış şairi Nigar Rəfibəylinin yaradıcılıq yolu // Azərbaycan məktəbi. - 2013. - № 6. - S. 59-63.

**Sərvi S**. "Şanlı nəsillərin yadigarıyam" : Rəfibəylilər nəsli Azərbaycan tarixində // El. - 2011. - № 5. - S. 2-13.

**Tağılar S**. Hərdən gülüşün düşür yadıma : Azərbaycanın xalq şairi Nigar Rəfibəyli haqqında // Azərbaycan : jurnal. - 2015. - № 9. - S. 198-202.

**Teymurova T**. Azərbaycanın tanınmış qadın şairi : Nigar Rəfibəyli - 100 // Kaspi. - 2013. - 16 noyabr. - № 209. - S. 19.

**Xəlilzadə F**. Halal diləklərin əbədi ünvanı : Nigar Rəfibəyli - 100 // Kaspi. - 2013. - 29 iyun. - № 115. - S. 16.

**Xəlilzadə F**. Halal diləklərin əbədi ünvanı : Nigar Rəfibəyli - 100 // Mədəni Həyat. - 2013. - avqust. - № 8. - S. 19-21.

**Xəlilzadə F**. İpək ovqatlı misralar : Qadın şairəmiz Nigar Rəfibəyli haqqında // Mədəniyyət. - 2010. - 27 avqust. - N 59. - S. 13.

**Yusifli V**. Həzin xəyal : Nigar Rəfibəyli - 100 // Mədəni Həyat. - 2013. - № 7. - S. 4-7.

**Yusifli V**. Nigar Rəfibəylinin çiçək dünyası // Ədəbiyyat qəzeti. - 2018. - 7 iyul. - № 26. - S. 2.

**Yusifli V**. Şanlı nəsillərin yadigarı : Xalq şairi Nigar Rəfibəylinin 100 illiyinə həsr olunmuş kitab haqqında // Ədəbiyyat qəzeti. - 2013. - 22 noyabr. - № 43. - S. 4.

***Azərbaycan ədəbiyyatında öz səsi, öz sözü olan şairə Nigar Rəfibəyli***

**(metodik vəsait)**

**Komputer yığımı**
**və dizayn:** **Aynurə Əliyeva**

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail:** info@clb.az.

**İnternet ünvanı: www.clb.az**